| RAZILAŞDIRILMIŞDIR: | TƏSDİQ EDİLMİŞDİR: |
| --- | --- |
| Azərbaycan Respublikası Mərkəzi Bankın<br>Baş direktoru | “Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti<br>İdarə Heyətinin sədri |
| ____________________ Z. Z. Əliyev | ___________________ F. K. Allahverdiyev |
| «     » Yanvar 2023-cü il | «     » Yanvar 2023-cü il |

# SU NƏQLİYYATI VASİTƏLƏRİ SAHİBLƏRİNİN MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

**Bakı – 2023**

**Ümumi anlayışlar**

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;
**Sığortaçı** - sığorta qanunvericiliyi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;
**Faydalanan şəxs(lər)** - icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;
**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;
**Sığorta hadisəsi** - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;
**Sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;
**Sığorta tələbi** - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;
**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;
**Sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;
**Sığorta predmeti** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya hal;
**Sığorta marağı** - sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir;
**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;
**Sığorta riski və ya risk** - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;
**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün aktuar hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;
**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;
**Sığorta şəhadətnaməsi** - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;
**Sığortanın müddəti** – sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət;
**Azadolma məbləği** – sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir;
**Əhəmiyyətli hallar** – müqavilə bağlanarkən bildirilməli olan, sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən və/və ya sığortalıya yazılı şəkildə aydın və birmənalı sorğu verilmiş hallar (faktlar) əhəmiyyətli sayılır;
**Sığortanın ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən coğrafi ərazi hüdudları.

**1. Sığorta sinfi**

1.1. Bu qaydalar su nəqliyyatı vasitələrinin sığortası növü üzrə aşağıdakı sığorta siniflərini əhatə edir:

1.1.1. yük daşıyanın mülki məsuliyyətinin sığortası;

1.1.2. su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası;

1.1.3. fərdi qəza sığortası.

**2. Sığorta predmeti**

2.1. Bu qaydalara əsasən gəmi heyətinin və üçüncü şəxslərin həyatına və ya sağlamlığına xəsarət yetirilməsi, əmlakına zərər vurulması halı sığortanın predmeti hesab olunur.

**3. Sığorta obyekti**

3.1. Bu qaydalara əsasən sığorta obyekti, sığortalının fiziki şəxslərin sağlamlığına xəsarət yetirməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi ilə bağlı əmlak mənafeləridir.

**4. Sığorta məbləği**

4.1. Sığorta məbləği sığorta şəhadətnaməsində qeyd olunmaqla sığortaçı ilə sığortalı arasında razılışdırılaraq müəyyən olunur.

4.2. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığorta məbləğinin azaldılması sığorta hadisəsi baş verdiyi tarixdən tətbiq olunur. Sığortalı əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğlərini bərpa edə bilər.

**5. Sığorta təminatı**

**5.1. Sığortalanmış gəmidə daşınan və ya daşınmış yükə görə məsuliyyət**

Aşağıdakı zərərlər ödənilir:

a) yükün itirilməsi, əskik gəlməsi və ya zədələnməsi (korlanması) ilə əlaqədar sığorta etdirənin (sığortalının) çəkdiyi zərər;

b) mühafizə edilməyən yükün daşınması ilə əlaqədar sığortalının əlavə xərcləri, o cümlədən:

- zədələnmiş yükün boşaldılması və ya atılması ilə əlaqədar xərclər;
- boşaldılma limanında və ya hər hansı bir başqa daşınma yerində yükün yük sahibi tərəfindən alınmaması ilə əlaqədar xərclər, bu şərtlə ki, belə xərclər yükün satışından əldə edilən gəlirdən artıq olsun (bu halda xərclərlə və satışdan əldə edilən gəlir arasında olan fərq ödənilir).

c) yükün sığortalanmış gəmidə deyil, başqa bir gəmidə daşınması ilə əlaqədar olan xərclər, o halda ki, daşınmanın qismən sığortalanmış gəmidə həyata keçiriləcəyini nəzərdə tutan birbaşa/yükləmə konosamenti və ya başqa müqaviləyə əsasən məsuliyyət yaranmış olsun.

Bu bölməyə əsasən sığortalının aşağıdakılar nəticəsində ortaya çıxan zərər və xərclərinin əvəzi ödənilmir:

- yükün daşıma müqaviləsində razılaşdırılandan fərqli bir limana və ya yerə boşaldılması.
- dövriyyəqabiliyyətli konosament və ya mala sərəncam verən müvafiq sənəd əsasında daşınan yükün yük alan tərəfindən konosament və ya müvafiq sənəd göstərilmədən verilməsi.
- dövriyyə qabiliyyəti olmayan konosament və ya başqa bir sənəd əsasında daşınan yükün bu sənədlər üzrə yük alan olmayan şəxsə verilməsi.
- bilərəkdən səhv məzmunlu məlumat ehtiva edən, konosamentin və ya daşınma sənədinin verilməsi.
- sığortalanmış gəminin yükləmə limanına gəlib çıxmaması və ya gec gəlib çıxması, yaxud hər hansı bir müəyyən yükün və ya yüklərin sığortalanmış gəmiyə yüklənməsinin mümkün olmaması.
- əgər sənədin əsli göstərilən yükün həmin gəmidə daşındığı müəyyən və ya bütün müddət ərzində sığortalanmış gəmidə olmuşdursa, konosamentin və/və ya mala sərəncam verən müvafiq sənədin əslinin təqdim edilməsi müqabilində yükün verilməsi;
- sikkələrin, külçələrin, qiymətli və ya nadir metalların və ya daşların, möhür formalarının və ya başqa obyektlərin, nadir və ya öz mahiyyəti etibarilə qiymətli banknotların və ya digər ödəniş vasitələrinin, istiqrazların və ya başqa dövriyyəqabiliyyətli sənədlərin daşınması.

**5.2. Sığortalanmış gəmidəki əmlaka görə məsuliyyət**

Əgər əmlak:

- sərnişinlərin, komanda üzvlərinin və ya digər fiziki şəxslərin şəxsi əşyaları deyilsə;
- yükə görə məsuliyyətlə bağlı deyildirsə (bax bənd 5.1.);

- sığortalanmış gəminin hissəsi deyildirsə;

üçüncü şəxslərə məxsus konteynerlərin, avadanlıqların, yanacağın və ya sığortalanmış gəmidə olmuş və ya yerləşən digər əmlakın məhv olması və ya zədələnməsinə görə məsuliyyətlə əlaqədar sığorta etdirənin (sığortalının) xərclərinin əvəzi ödənilir.

**5.3. Sığortalanmış gəminin başqa gəmilər ilə toqquşmasına görə məsuliyyət**

Sığortalanmış gəminin başqa gəmilər ilə toqquşması nəticəsində sığortalının digər gəmilərin sahiblərinə ödəməli olduğu zərərlərin əvəzi ödənilir.

Habelə, gəmilərin toqquşma nəticəsində aşağıdakılarla bağlı yaranan xərclər də təminata daxildir:

a) batmış əmlakın çıxardılması;
b) gəmilərin və onların üstündə olan əmlakdan başqa hər hansı digər əmlakın zədələnməsi;
c) sığortalanmış gəmidəki yükün və ya digər əmlakın zədələnməsi, birgə zərərlə bağlı ödəmələr, yükün və ya əmlakın sahibinin xilas etmə ilə bağlı xərcləri;
d) üçüncü şəxslərin ölümü, xəsarət alması və ya xəstələnməsi;
e) sığortalanmış gəminin toqquşduğu gəmidən və ya onun üzərindəki əmlak istisna olmaqla, hər hansı digər əmlakın çirkləndirilməsi.

Bununla bağlı:

- bir sığorta etdirənə (sığortalıya) məxsus olan gəmilər toqquşduqda, onun sığortaçıdan ödəniş almaq hüququ vardır və öz növbəsində sığortaçı da belə gəmilərə münasibətdə onların ayrı-ayrı şəxslərə məxsus olduğu zaman malik olduğu hüquqlara sahibdir;
- sığortalanmış gəminin Gövdə Sığortası Müqaviləsindəki (şəhadətnaməsindəki) toqquşmaya görə məsuliyyət müddəasına əsasən ödənilən zərərlər, bu bölməyə əsasən sığorta təminatına daxil edilmir.

**5.4. Üzən və hərəkət etməyən obyektlərin zədələnməsinə görə məsuliyyət**

Sığortalanmış gəminin gəmi olmayan hər hansı bir üzən, hərəkət etməyən və ya başqa obyekti zədələməsinə görə sığortalının üçüncü şəxslərə ödəməli olduğu zərərlərin əvəzi ödənilir.

Əgər sığortalanmış gəmi sığortalının özünə tam və ya qismən məxsus olan hər hansı bir obyekti zədələmişdirsə, bu halda sığortalı, bu obyektlərin sanki üçüncü şəxslərə tam və ya qismən məxsus olması düşüncəsindən çıxış edərək, sığortaçıdan zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

**5.5. Yedəyə alma müqaviləsi üzrə məsuliyyət**

Sığortalanmış gəminin yedəyə alınması müqaviləsi ilə əlaqədar və aşağıdakıların nəticəsində sığortalının üçüncü şəxslər qarşısında ortaya çıxan zərərlərinin əvəzi ödənilir:

a) sığortalanmış gəminin limana girməsi və çıxması və ya adi üzmə şəraitində liman daxilində yerinin dəyişdirilməsi məqsədilə yedəyə alınması;

b) yedək vasitəsilə bir limandan digərinə və ya bir yerdən başqa yerə yerdəyişməsi normal hesab edilən sığortalanmış gəmilərin yedəyə alınması;

c) yedəklənmənin şərtləri əvvəlcədən sığortaçı ilə razılaşdırılmaqla, sığortalanmış gəminin başqa gəmiləri yedəyinə alması.

**5.6. Gəminin qəzaya uğraması nəticəsində batan əmlakın çıxarılmasına görə məsuliyyət**

Aşağıdakı xərclərin əvəzi ödənilir:

a) əgər qanunvericiliyə əsasən bu tədbirlərin görülməsi məcburidirsə və ya bu xərclərin ödənilməsi sığortalının vəzifəsidirsə, sığortalanmış gəminin qalıqlarının qaldırılması, kənarlaşdırılması, məhv edilməsi, işıqlandırılması və ya işarə olunması nəticəsində çəkilən xərclər;

b) əgər qanunvericiliyə əsasən bu tədbirlərin görülməsi məcburidirsə və ya bu xərclərin ödənilməsi sığortalının vəzifəsidirsə, sığortalanmış gəmidə daşınan əmlakın (neft və digər çirkləndirici maddələr istisna olmaqla) qaldırılması, kənarlaşdırılması və ya məhv edilməsi ilə bağlı xərclər;

c) qalıqlardan neftin və ya digər çirkləndirici maddələrin atılması və ya sızmasına görə məsuliyyət də daxil olmaqla, sığortalanmış gəminin qalıqlarının yerinin qeyri-ixtiyari dəyişməsi, yaxud belə qalıqların qaldırılması, kənarlaşdırılması, məhv edilməsi, işıqlandırılması və ya işarə olunması üçün tədbirlərin görülməməsi ilə əlaqədar olan xərclər.

Bu halda:

Bu bölmənin «a» bəndinə əsasən iddia edilən zərər məbləğindən xilas edilmiş əmlakın, materialların, həmçinin qalıqların dəyəri çıxılır. Əgər belə bir fərq əmələ gələrsə, sığortaçı tərəfindən verilən ödəniş yalnız alınmış fərq miqdarı ilə məhdudlaşır.

Sığortalanmış gəminin qalıqlarının qaldırılması, kənarlaşdırılması, məhv edilməsi, işıqlandırılması və ya işarə olunması üçün tədbirlər görülənə və ya məsuliyyətin və xərclərin ortaya çıxmasına səbəb olan hadisə baş

verənə qədər, sığortalı sığortaçının yazılı razılığı olmadan sığortalanmış gəminin qalıqlarına olan əmlak hüquqlarını başqasına ötürdükdə zərərlərin əvəzi ödənilmir.

**5.7. Sığortalanmış gəmilərdən neft və digər çirkləndirici maddələrin axması (tullanılması) nəticəsində suların və ya sularda yerləşən hər hansı əmlakın çirkləndirilməsilə vurulan zərərə görə məsuliyyət**

Aşağıdakı xərclərin əvəzi ödənilir:

a) zərərin əvəzinin ödənilməsi üçün sığortalının ödədiyi məbləğlər, həmçinin milli qanunvericiliyə və beynəlxalq konvensiya və sazişlərə müvafiq olaraq, sığortalının ödəməli olduğu xərclər;

b) müstəsna olaraq, xəbərdarlıq etmək və çirklənmənin qarşısını almaq məqsədilə sığortalının ağlabatan xərcləri.

**5.8. Fiziki şəxslərə vurulan zərərə görə məsuliyyət (sığortalanmış gəminin ekipaj üzvləri istisna olmaqla)**

a) sığortalanmış gəminin istismarı zamanı bədən xəsarəti, xəstəlik və ya ölüm hadisələri ilə əlaqədar ortaya çıxan xərclər sığorta təminatına daxil edilir. Göstərilən bədən xəsarəti, xəstəlik və ya ölümlə nəticələnən sığorta hadisələri ilə əlaqədar xəstəxanaya yerləşdirilmə, tibbi xərclər və dəfn xərcləri ilə bağlı zərərlər də ödənilir;

b) sərnişinlərin təyinat yerinə çatdırılması və ya göndərilmə limanına qaytarılması xərcləri də daxil olmaqla, bədbəxt hadisə, qəza nəticəsində sığortalanmış gəminin sərnişinlərinin xərcləri də sığorta təminatına daxildir. Bədbəxt hadisə nəticəsində sərnişinlərin şəxsi əşyalarına dəyən zərərə görə də ödəniş verilir.

Daşıyıcının məsuliyyəti ilə bağlı sərnişin biletinə daxil edilən şərtlər sığortaçı ilə razılışdırılmalıdır.

Əgər müqavilədə (şəhadətnamədə) başqa cür nəzərdə tutulmamışdırsa, nağd pul, çek, bank sənədləri, qiymətli və nadir metallar, daşlar, qiymətli və nadir əşyalar, incəsənət əsərləri və antikvariatlarla bağlı zərərin əvəzi ödənilmir.

**5.9. Zərərin qarşısının alınması və/və ya həcminin azaldılması üçün çəkilən xərclər**

Sığortaçı ilə razılaşdırmaqla, gəmi sahiblərinin sığorta hadisələri ilə əlaqədar onların maraqlarının müdafiə olunmasına, tələblərin həcminin azaldılmasına və ya rədd edilməsinə yönəlmiş ağlabatan xərclərinin əvəzi ödənilir.

Sığortalanmış risklər üzrə məhkəmə və arbitraj işlərinin aparılması və arbitraj mübahisələri ilə bağlı xərclər, dövlət rüsumu təminata daxil edilir.

**5.10. Gəmi heyətinin həyat və sağlamlığına dəymiş zərərə görə məsuliyyət**

Sığortalanmış gəminin heyət üzvlərinin bədbəxt hadisə nəticəsində həyat və sağlamlığına zərər dəyməsi ilə nəticələnən hadisələrə dair aşağıdakılar üzrə çəkilmiş ağlabatan və məqsədyönlü xərclər sığorta ödənişinə daxil edilir:

- Hospitalizasiya
- Tibbi yardım və xidmətlər
- Müalicə müddəti ərzində əmək haqqı ödənişləri
- Dəfn xərcləri
- Heyət üzvünün (meyitin və ya qalıqlarının) və şəxsi əşyalarının repatriasiyası və repatriasiya olunmuş heyət üzvünün əvəzinə gəmiyə yeni heyət üzvünün gətirilməsi

Bu sığorta təminatı sığortalı ilə heyət üzvləri arasında bağlanmış kollektiv saziş və ya əmək müqaviləsinin şərtləri çərçivəsində nəzərdə tutulduğu və sığortaçı ilə razılaşdırıldığı halda verilir.

**5.11. Təminatın genişləndirilməsi**

Əvvəlcədən yazılı şəkildə razılaşdırılmaqla və əlavə sığorta haqqı müqabilində sığortaçı bu qaydaların məzmununda konkret olaraq istisna olunmayan və ya nəzərdə tutulmayan aşağıdakı risklərə qarşı təminat verə bilər:

**5.11.1. yedəkçi və ya hər hansı digər xilasedici gəminin məsuliyyəti;**

**5.11.2. xilasetmə əməliyyatlarının gedişində ortaya çıxan zərər və xərclərin əvəzi ödənilir;**

**5.11.3. sığortalanmış gəminin qabaqcadan nəzərdə tutulmuş marşrutdan kənara çıxması nəticəsində yaranan məsuliyyət.**

Xəstənin ən yaxın limana çatdırılması üçün nəzərdə tutulmuş marşrutdan kənara çıxılması, onun gəlib çatmasının gözlənilməsi, marşrutun dəyişilməsi, qaçqınların və ya biletsiz sərnişinlərn sahilə çıxarılması, o cümlədən:

- yanacağın dəyəri;
- sığorta;
- ekipajın əmək haqqı;

- liman vergisi (rüsumları)

ilə əlaqədar ortaya çıxan xərclər də sığorta təminatına daxildir.

**5.11.4. Üçüncü şəxslərə qarşı əks iddiaların irəli sürülməsi üzrə xərclərə görə məsuliyyət (hüquqi müdafiə sığortası)**

Bu qaydalara əsasən, ortaya çıxan xərclərə və zərərə görə məsuliyyət daşıya biləcək üçüncü şəxslərə qarşı sığortalı, o cümlədən:

- stividor şirkətləri;
- sahil qurğularının və üzən qurğuların sahibləri;
- sığortalanmış gəmi ilə toqquşan gəmilərin sahibləri;
- daşınması zamanı digər yüklərin zədələnməsi ilə nəticələnən yükün sahibləri

tərəfindən irəli sürülən tələb və ya iddialarla, arbitrajlarda və məhkəmələrdə işlərin aparılması.

**5.11.5. Yük daşıma müqaviləsinin pozulmasına görə məsuliyyət**

Sığortalı tərəfindən yük daşıma müqaviləsinin şərtlərinin pozulması, o cümlədən anbar konosamenti üzrə yükün göyərtədə daşınması nəticəsində ortaya çıxan xərclərin və zərərlərin əvəzi ödənilir, o şərtlə ki, belə pozuntu nəticəsində yük daşıyan öz məsuliyyətinin məhdudlaşdırılması hüququndan və ya konosamentdə yaxud bu daşımaya tətbiq edilən hər hansı digər hüquqi mənbədə nəzərdə tutulan müstəsna qeyd-şərtlərə istinad etmək hüququndan məhrum edilə bilsin.

**5.11.6. Bildirilmiş dəyəri olan konosament üzrə məsuliyyət**

Bildirilmiş dəyəri olan konosament üzrə daşınan yükün məhv olması və ya zədələnməsi nəticəsində Sığortalının çəkdiyi xərclərin və zərərlərin yalnız, məhv olmuş/zədələnmiş yükün dəyərinin mövcud qanunvericiliklə yük daşıyanın məsuliyyətinin (məbləğin çoxluğundan asılı olaraq, yükün yerinə və ya təkliyinə görə) həddi kimi müəyyən edilən məbləği və ya daşıma şərtlərini tətbiq etməklə yük daşıyanın öz məsuliyyətini məhdudlaşdırdığı məbləği aşan hissəsinin əvəzi ödənilir.

**6. Ümumi istisnalar:**

6.1. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa aşağıdakı halların birbaşa və ya dolayısı nəticəsində baş verən itki və ziyanlar sığortaçı tərəfindən ödənilmir:

6.1.1. sığortalının qərəzli hərəkətləri;

6.1.2. yola çıxana qədər gəminin dənizə yarasızlığı haqqında sığortalının xəbərdar olması;

6.1.3. müharibə, hərbi əməliyyatlar və ya digər hərbi tədbirlər;

6.1.4. vətəndaş müharibəsi, inqilab, qiyam, xalq ixtişaşları;

6.1.5. tətillər, lokautlar və analoji hadisələr;

6.1.6. hərbi əməliyyatların, tətillərin və s. (fırıldaqçılıq və dəniz quldurluğu halları istisna olmaqla) nəticəsində əsir alınma, tutulma, həbs edilmə və ya tutulub saxlanılma;

6.1.7. mina, torpeda, bomba, raket, mərmi, partlayıcı maddə və ya digər hərbi sursatların təsiri (yuxarıda göstərilən əşyaların sığortalanmış gəmidə yük kimi daşınması nəticəsində ortaya çıxan zərərlər və/və ya xərclər istisna olmaqla);

6.1.8. siyasi motivlərlə həyata keçirilən sabotaj və ya terrorçuluq aktları;

6.1.9. hökumətin və ya hakimiyyət funksiyalarını icra edən hər hansı orqanın tapşırığı ilə müsadirə, rekvizisiya və ya analoji tədbirlər;

6.1.10. gəminin qaçaqmalçılıq və ya digər qanunsuz əməliyyatlarda iştirak etməsi;

6.1.11. yuxarıda göstərilən hərəkətlərin edilməsinə cəhd;

6.1.12. sığortalanmış gəmidə həm yük kimi daşınan, həm də onun xaricində olan nüvə yanacağının və ya radioaktiv məhsulların və ya tullantıların ionlaşdırıcı radiasiya, toksik, partlayıcı və ya digər təhlükəli xüsusiyyətləri.

6.2. İxtisaslaşdırılmamış sığortalanmış gəminin aşağıdakı məqsədlərlə istifadə olunması:

6.2.1. xilasetmə;

6.2.2. qazma;

6.2.3. dənizin dibinin dərinləşdirilməsi;

6.2.4. boru kəmərinin çəkilməsi.

6.3. Sığortaçının cavabdeh şəxslərdən tələb hüququnun təmin olunmaması və ya göstərilən zərər və xərclər əgər sığortalının dolayı zərərləridirsə və aşağıdakı xüsusiyyətə malikdirlərsə:

6.3.1. sığortalanmış gəminin və ya onun hər hansı hissəsinin məhv olması və ya zədələnməsi ilə əlaqədar ortaya çıxmışsa;

6.3.2. sığortalıya məxsus olan və ya icarəyə götürülmüş sığortalanmış gəmidə yerləşən avadanlıqların, konteynerlərin, gəmi təchizatlarının, ləvazimatlarının, yanacağın məhv olması və ya zədələnməsi ilə

əlaqədar ortaya çıxmışsa;

6.3.3. yükün çatdırılmaması və ya əskik gəlməsinə görə sığortalı tərəfindən ödəniləcək zərərin bir hissəsi olması halları istisna olmaqla, fraxtın və ya icarə haqqının itirilməsi ilə əlaqədar sığortalıya qarşı və ya onun özü tərəfindən irəli sürülmüş tələblərlə bağlı ortaya çıxmışsa;

6.3.4. yükün çatdırılmaması və ya əskik gəlməsinə görə sığortalı tərəfindən ödəniləcək zərərin bir hissəsi olması halları istisna olmaqla, sığortalanmış gəminin gecikməsi ilə əlaqədar sığortalıya qarşı və ya onun özü tərəfindən irəli sürülmüş tələblərlə bağlı ortaya çıxmışsa.

6.4. Bu qaydaların məzmununda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər sığorta müqaviləsində razılaşdırılmaqla sığorta təminatına daxil edilə bilər.

**7. Sığorta müqaviləsi**

**7.1. Sığorta müqaviləsinin bağlanması**

7.1.1. sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaya qəbul edilən əmlaka dair riskin dərəcəsinin müəyyən edilməsi üçün əhəmiyyətli və ona məlum olan bütün hallar haqqında sığortaçıya məlumat verməlidir. Sığortalının ərizə formasında qeyd etdiyi hallar həmçinin əhəmiyyətli hallar hesab edilir. Sığorta müqaviləsi bağlandıqdan sonra sığortalının sığortaçıya bilərəkdən yalan məlumatlar verməsi müəyyən edilərsə, sığortaçı müqavilənin etibarsız hesab edilməsini tələb edə bilər;

7.1.2. sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir;

7.1.3. bu qaydalar daxilində sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

**8. Sığorta haqqı**

8.1. Sığorta müqaviləsi üzrə sığorta haqqı sığortaçı tərəfindən tarif dərəcələrinə əsasən hesablanır.

8.2. Sığorta haqqının ödənildiyi gün, pul vəsaitinin sığortaçının bank hesabına daxil olduğu gün hesab olunur.

8.3. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün saat 24:00-da, lakin şəhadətnamədə göstərilmiş sığorta müddətinin başlanma tarixindən tez olamayaraq qüvvəyə minir.

8.4. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:

8.4.1. bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 8.4.2-ci bəndinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək əlavə müddət müəyyən edə bilər;

8.4.2. hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

**9. Sığorta ərazisi**

9.1. Yalnız sığorta şəhadətnaməsində qeyd olunmuş ərazi hüdudlarında (üzmə rayonunda) baş verən sığorta hadisələrinə təminat verilir.

**10. Sığorta müddəti**

10.1. Sığorta müddəti, sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsinin bağlandığı gün saat 24:00-da başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat 24:00-da başa çatır.

10.2. Sığorta müqaviləsi qısa və ya uzun müddətə bağlanıla bilər.

**11. Azadolma məbləği**

11.1. Sığorta müqaviləsində şərtli və ya şərtsiz azadolma məbləği sığortalı ilə sığortaçı arasındakı razılığa əsasən müəyyən oluna bilər.

11.2. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq edilmir.

11.3. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda tətbiq edilir.

11.4. Sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində bir neçə sığorta hadisəsi baş verdikdə azadolma

məbləği hər bir hadisə üzrə tətbiq olunur.

**12. Riskin dərəcəsinin dəyişməsi**

12.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, sığortalı, sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə sığortaçıya dərhal məlumat verməlidir.

12.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

12.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək, əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsinə xitam vermək.

**13. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi**

13.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı, faydalanan şəxsin (əgər varsa) yazılı razılığı ilə müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

**14. Sığorta müqaviləsinə xitam verilməsi**

14.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

14.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

14.1.2. qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda;

14.1.3. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

14.1.4. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

14.1.5. sığorta marağı artıq mövcud olmadıqda;

14.1.6. sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

14.1.7. su nəqliyyatı vasitəsi özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə;

14.1.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

14.2. Sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər.

14.2.1. Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 (otuz) gün əvvəl yazılı surətdə xəbərdar etməlidirlər.

**14.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

14.3.1. sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır;

14.3.2. sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır. Əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər;

14.3.3. sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi

verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır;
14.3.4. sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu qaydaların 14.4.1-14.4.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir;
14.3.5. sığorta müqaviləsi məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu qaydaların 14.4.3-14.4.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

**15. Tərəflərin hüquq və öhdəlikləri**
**15.1. Sığortalının aşağıdakı hüquqları var:**
15.1.1. sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq;
15.1.2. sığorta müqaviləsinə əlavə və dəyişiklik etmək;
15.1.3. sığorta müqaviləsinə xitam vermək;
15.1.4. itirilmiş şəhadətnamənin yerinə dublikatını almaq;
15.1.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar.
15.2. Sığortalının aşağıdakı vəzifələri var:
15.2.1. sığorta hadisəsi baş verdikdə, bu barədə qaydaların 16.1-ci bəndində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etməli;
15.2.2. ziyanın qarşısının alınması və azaldılması üçün bütün zəruri tədbirlər görməli, sığorta haqqını vaxtında ödəməli;
15.2.3. sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar, o cümlədən riskin dərəcəsinin sonradan dəyişilməsi barədə sığortaçıya məlumat verməlidir;
15.2.4. sığortalanmış obyektə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;
15.2.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.
15.3. Sığortaçının aşağıdakı hüquqları var:
15.3.1. sığortalının bildirdiyi məlumatların düzgünlüyünü yoxlamaq;
15.3.2. sığortalanmış riskin dərəcəsi artdıqda, sığortalıya sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən, sığorta riskinin artması nisbətində əlavə sığorta haqqının ödənilməsini təklif etmək və ya sığortalını xəbərdar etdikdən sonra sığorta müqaviləsinə xitam vermək;
15.3.3. sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan tələb etmək;
15.3.4. sığortalı sığorta müqaviləsi üzrə öz öhdəliklərini icra etmədikdə, saxta sənədlər təqdim etdikdə və ya zərərin artırılması və ya sığorta ödənişinin əsassız şəkildə artırılması məqsədilə qəsdən hərəkətlər etdikdə, sığorta ödənişinin verilməsindən tam və ya qismən imtina etmək;
15.3.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar.
15.4. Sığortaçının aşağıdakı vəzifələri var:
15.4.1. sığortalını sığorta qaydaları ilə tanış etməli;
15.4.2. sığorta hadisəsi baş verdikdə bütün zəruri sənədləri aldıqdan sonra sığorta ödənişini bu qaydaların 17.5-ci bəndində müəyyən edilmiş müddətdə verməli;
15.4.3. qanunvericliklə nəzərdə tutulmuş hallardan başqa, sığorta sirri olan məlumatları yaymamaq;
15.4.4. sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;
15.4.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

**16. Sığorta hadisəsi baş verdikdə sığortalının öhdəlikləri:**
16.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs

hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.
16.2. Zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməli və belə tədbirlərin görülməsi zamanı sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.
16.3. Sığortaçının və ya onun nümayəndələrinin sığorta hadisəsinin tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, zərərin təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi tədbirlərində iştirakını təmin etməli.
16.4. Vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri sığortaçıya təqdim etməli.
16.5. Üçüncü şəxslərin əmlakına zərər vurulduğu halda sığortalı və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:
16.5.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
16.5.2. sığortaçı sığorta hadisəsi barədə bu qaydalarda nəzərdə tutulmuş müddətdə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
16.5.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.
16.6. Sığortalı tərəfindən yuxarıda göstərilmiş hər hansı öhdəliyin icra olunmaması sığorta müqaviləsinin əhəmiyyətli şəkildə pozulması hesab edilir və bu qaydaların 18-ci maaddəsinin tələbləri çərçivəsində sığortaçının sığorta ödənişini vermək öhdəliyindən azad edir.

## 17. Zərərin müəyyən edilməsi və sığorta ödənişinin verilməsi:

17.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.
17.2. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.
17.3. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.
17.4. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.
17.5. Sığorta ödənişi sığortaçı sığortalıdan zərər faktını, onun səbəblərini və həcmini təsdiq edən aşağıda əks olunan bütün zəruri sənədləri aldıqdan sonra 7 iş günündən gec olmayaraq verilməlidir.
17.5.1. sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır:
17.5.1.1. sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya ünvanladığı sığorta tələbi;
17.5.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
17.5.1.3. sığorta hadisəsininin baş verməsini təsdiqləyən sənədlər;
17.5.1.4. zərər məbləğinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlər;
17.5.1.5. icarəyə və ya hər hansı fərqli formada digər şəxsə istismar üçün verildiyi halda sığorta predmetinə istifadə hüququnu təsdiq edən sənədlər;
17.5.1.6. əmlakına zərər dəymiş üçüncü şəxslərin mülkiyyət hüququnu təsdiq edən sənədlər;
17.5.1.7. sağlamlığına zərər dəymiş şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər, müvafiq hallarda müalicə və

müayinə xərclərini təsdiq edən sənədlər, zəruri hallarda tibbi sosial-ekspert komissiyasının arayışı, tibbi ekspertiza rəyi, ölüm faktını təsdiq edən sənədlər, habelə ölənin ailə üzvlərinin onunla qohumluq əlaqəsini təsdiq edən müvafiq sənədlər;

17.5.1.8. təkrarsığortaçıların tələblərinə əsasən təyin edilmiş hadisənin baş vermə səbəblərini, şəraitini və digər təfərrüatları müəyyən edən ekspert rəyləri;

17.5.1.9. sığortalanmış əmlakın istismarına dair bort cədvəlləri, istismar qaydalarının şərtlərini müəyyənləşdirən sənədlər, üzmə rayonu və müəyyən edilmiş marşrutla hərəkət haqqında sənədlər, ekipaj üzvlərinə aid və onların xidmətə təyin edilməsinə dair sənədlər, daşınan yüklərin sənədləri və dənizçilik və su nəqliyyatı vasitələrinin istismar edilməsinə dair digər sənədlər.

17.6. Tələb olunmuş sənədlərin təqdim olunmaması sığortaçıya zərəri ödəməmək hüququ verir.

17.7. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

## 18. Sığorta ödənişindən imtinanın əsasları

18.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

18.1.1. bu qaydaların 16.1-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

18.1.2. sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 16.5-ci bəndinə riayət edilmədikdə;

18.1.3. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

18.1.4. müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;

18.1.5. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi. Bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

18.1.6. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, üçüncü şəxslərin əmlakına zərər dəydiyi halında, bu qaydaların 16.5.1-ci bəndində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

18.1.7. bu qaydaların 18.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

18.1.8. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

18.1.9. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu qaydaların 8.4.1-ci bəndində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

18.1.10. sığorta qaydalarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş digər hallarda.

18.2. Bu qaydaların 15.2.3-cü bəndində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi faktına əsaslana bilməz.

## 19. Xüsusi şərtlər

19.1. Tərəflərin qarşılıqlı razılığına əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu qaydalara zidd olmaması şərtilə, sığorta müqaviləsində əlavə şərtlər nəzərdə tutula bilər.

**20. Valyuta barəsində qeyd-şərt**

20.1. Sığorta məbləği, azadolma məbləği, sığorta haqqı və sığorta ödənişləri xarici valyuta ilə göstərildiyi halda da ödənişlər milli valyuta - Azərbaycan manatı ilə, Azərbaycan Respublikası Mərkəzi Bankının ödəniş gününə olan rəsmi məzənnəsi ilə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər hansı xarici valyuta ilə həyata keçirilməlidir.

20.2. Sığorta ödənişinin hesablanması üçün əsas olan sənədlərdəki göstəricilər sığorta müqaviləsinin valyutasından fərqli olaraq Azərbaycan manatı və ya digər valyuta ilə ifadə olunduğu halda, müqavilənin valyutasına çevirmə, Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq sənədin tərtib olunduğu günə müəyyən etdiyi rəsmi məzənnə əsasında aparılır.

**21. Tərəflərin məsuliyyəti**

21.1. Bu qaydaların şərtlərinin yerinə yetirilməməsinə və ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**22. İş sirlərinin gizli saxlanılması**

22.1. Sığortaçı, sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda sığortalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

**23. Mübahisələrin həlli qaydası**

23.1. Bu qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

## “Qala Sığorta” ASC

### Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması

Tarif dərəcələrinin əsaslandırılması “Qeyri-həyat sığortası sahəsi üzrə sığorta tariflərinin hesablanması haqqında” Metodikadan istifadə edilməklə aparılır. Tarif dərəcəsini hesablayarkən əvvəlcə netto-dərəcəni hesablayırlar. Netto-dərəcənin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1. Sığorta hadisəsinin baş verməsi ehtimalı (q) – 0.0014;
2. Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) – 30 000 000 manat;
3. Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) – 20 000 000 manat;
4. Bağlanılanacaq sığorta müqavilələrinin sayı (n) – 5 .

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100*q*Sö/So = 100*0.0014*20 000 000 / 30 000 000 = 0.03 manat

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını γ=0.98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal ά(γ)=2 olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

Tr = 1.2 Tə ά(γ) $((1\text{-}q) / (nq))^{1/2}$ = $0.03*1.2*2*((1\text{-}0.0014) / (5*0.0014))^{1/2}$ = 0.86 manat

Tn = Tə + Tr = 0.03 + 0.86 = 0.89 manat.

Tarif dərəcələrinin strukturu: netto-dərəcə - 45% , yüklənmə - 55% .

55% yüklənməyə daxildir:

50% komisyon muzd, 3% digər administrativ xərclər və 2% tarif mənfəəti

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) =0.89 / (1- 0.55) = 1.98 manat.

Sığorta obyektinin xarakteristikasından, sığorta riskinin dərəcəsinə təsir edən amillərdən (su nəqliyyatı vasitəsinin istifadə olunduğu ərazi və hava şəraiti, nəqliyyat vasitəsinin tipi və istehsal tarixi), azadolma məbləğindən və s. səbəblərdən asılı olaraq yuxarıda alınan bazis tarif dərəcəsinə azaldıcı və ya artırıcı əmsallar tətbiq edilir. Nəticədə yekun tarif dərəcələri 0.02% – 10% aralığında dəyişir.

Tarifin hesablanmasında istifadə oluna bilən maksimal əmsal düsturu

2.16 (siyası böhran yaşayan ölkələr üzrə (məsələn, Əfqanıstan İslam Respublikası-nın ərazisi))

1.7 (Yüksək zərərlilik ehtimalı olan sığorta obyektləri üzrə)

1.25 (Sığorta obyektinin buraxılış ili və istismarı üzrə)

1.1 (yüksək risklər üzrə zərərlərin inkişaf əmsallarının statistikası)

Qeyd olunan əmsalların tətbiqi nəticəsində baza tarifinin formalaşması düsturu

| | | | | |
|---|---|---|---|---|
| 2,16 | 1,7 | 1,25 | 1,1 | 9-10% |
| 2,16 | 1,7 | 1,25 | | 9-10% |
| 2,16 | 1,7 | 1,1 | | 7-8% |
| 2,16 | 1,25 | 1,1 | | 5-6% |
| 1,7 | 1,25 | 1,1 | | 4-5% |
| 2,16 | 1,7 | | | 7-8% |
| 2,16 | 1,25 | | | 5-6% |
| 2,16 | 1,1 | | | 4-5% |
| 1,7 | 1,25 | | | 4-5% |
| 1,7 | 1,1 | | | 3-4% |
| 1,25 | 1,1 | | | 2-3% |
| 2,16 | | | | 4-5% |
| 1,7 | | | | 3-4% |
| 1,25 | | | | 2-3% |
| 1,1 | | | | 2-3% |

Yüksək risklərlə bağlı statistik məlumatların olmadığı halda 1.1 əmsalı əvəzinə 0.01 azaldıcı əmsal tətbiq olunur

| | | | | |
|---|---|---|---|---|
| 2,16 | 1,7 | 1,25 | 0.01 | 0.09% |
| 2,16 | 1,7 | 1,25 | | 9-10% |
| 2,16 | 1,7 | 0.01 | | 0.07% |
| 2,16 | 1,25 | 0.01 | | 0.05% |
| 1,7 | 1,25 | 0.01 | | 0.04% |
| 2,16 | 1,7 | | | 7-8% |
| 2,16 | 1,25 | | | 5-6% |
| 2,16 | 0.01 | | | 0.04% |
| 1,7 | 1,25 | | | 4-5% |
| 1,7 | 0.01 | | | 0.03% |
| 1,25 | 0.01 | | | 0.03% |
| 2,16 | | | | 4-5% |
| 1,7 | | | | 3-4% |
| 1,25 | | | | 2-3% |
| 0.01 | | | | 0.02% |